# Vətən qarşısında müstəsna xidmət

**Bu gün cənab İlham Əliyevin prezidentliyinin 21-ci ili tamam olur. Bu günün reallıqlarından 21 il əvvələ baxanda ozamankı Azərbaycanla müqayisədə hansı ciddi uğurlara imza atılmasının fərqində olmamaq mümkün deyil. Ümumiyyətlə, 2003-cü ilin prezident seçkilərinin keçirildiyi dövrü bəzən 1993-cü ildə mövcud olmuş çox gərgin, ölkəmiz üçün taleyüklü zaman kəsiyi ilə müqayisə edirlər.**



Hesab edirəm ki, bu müqayisədə həqiqət payı kifayət qədər yüksəkdir. Belə ki, 2003-cü il seçkiləri ərəfəsində də 10 il əvvəl olduğu kimi, ölkədaxili siyasi qüvvələr arasındakı ziddiyyətlər pik həddə çatmışdı. Eyni zamanda bəzi kənar qüvvələr mövcud durumdan istifadə edərək Azərbaycan üzərindən bölgədə öz regional maraqlarını reallaşdırmağı hədəfləmişdilər. O da sirr deyil ki, bir çoxları prezidentliyə namizəd olaraq siyasi səhnədə nisbətən gənc lider qismində çıxış edən İlham Əliyevin ciddi uğur qazanacağına şübhə ilə yanaşırdılar. Lakin cənab İlham Əliyev kifayət qədər qətiyyətlə maneələri dəf elədi və prezident seçkilərində ilk uğuruna imza atdı.

O zaman yəqin ki, heç kim müqayisə olunmayacaq dərəcədə daha böyük uğurlara imza atılacağını və bir müddət sonra Prezident İlham Əliyevin Azərbaycan tarixinə işğal altında olan torpaqlarımızı azad edən Ordu rəhbəri, Müzəffər Ali Baş Komandan olaraq düşəcəyini təxmin etmirdi. Əlbəttə ki, bu illər ərzində əldə edilmiş uğurları bir yazıya sığışdırmaq mümkün deyil. Amma tam qətiyyətlə demək olar ki, bu uğurların zirvəsində İlham Əliyevin prezidentliyi dönəmində torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi dayanır.

Bu uğur bilavasitə Ali Baş Komandan olaraq Prezident İlham Əliyevin Vətən qarşısında müstəsna xidmətidir. Əlavə olaraq onu da tam əminliklə demək olar ki, istər regional, istərsə də qlobal güclərin bölgədə iqtisadi, siyasi və hərbi maraqlarının olmasına və mövcud reallıqlara rəğmən ölkəmizin müstəqil siyasət yürütməklə hazırki nailiyyətləri əldə etməsi bilavasitə Azərbaycan Prezidentinin yürütdüyü çoxvektorlu uğurlu xarici siyasət sayəsində mümkün olmuşdur.

Aparılan siyasətin nəticəsidir ki, Azərbaycan bu gün regionun əsas söz və güc sahibidir. Mövcud reallıqlar həm də onu diktə edir ki, regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşdırıla bilməz. Təbii ki, Azərbaycanın liderliyinin qorunub saxlanılması və daha da gücləndirilməsi üçün qarşıda görüləcək işlər çoxdur. Mən Prezident İlham Əliyevin ötən dövr ərzindəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, ona Azərbaycan naminə gələcək fəaliyyətində də uğurlar arzulayıram.

**Arzuxan ƏLİZADƏ,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri***

Azərbaycan.- 2024.- 15 oktyabr (№ 226).- S.7.